# Ölkə ədəbiyyatı tarixi-5

## Mühazirə 1 XIX əsr Avropa ədəbiyyatında yaranan romantizm cərəyanı

**Plan.**

**1. Romantizmin yarandığı tarixi şərait və səciyyəvi xüsusiyyətləri.**
**2. Mürtəce və mütərəqqi romantizm.**
**3. Ədəbiyyatda romantizm.**

**Ədəbiyyat**


**1. Ə.Xəlilov Dünya ədəbiyyatı tarixi. VII c. Ali məktəblər üçün dərslik.Bakı “Bilik” 2013.**
**2. Ə.Zeynalov Şərq F.Volter yaradıcılığında. Azərbaycan Milli Elmlər Akademiyasının Nəşriyyatı. 2001.**
**3. Bədəlbəyli Ü. Ingilis ədəbiyyatı tarixinə aid oçerklər. Bakı 2009.**
**4.V.Y. Baxmutskiy, Bojor Y.N. İstoriya zarubejnoy literaturı XVIII veka. Vısşaya şkola. Moskva , 1967.**


Romantizmin yaranması və inkişafı XVII əsrin son 10 ili və XIX əsrin ilk 30 ilinə təsadüf edir. Bu mürəkkəb ədəbi cərəyanı o dövrdə baş verən hadisələrlə bağlı şəkildə öyrənmək lazımdır. Son tarixi proseslərin ifadəsi isə 1789-1794-cü illər Fransa inqilabında. Məhz bu inqilab feodal dünyasını məhv etdi. Bu inqilab təkcə Fransanı yox, bütün dünya tarixində dönüş nöqtəsi oldu. Feodalizmin dağılması prosesiAlmaniyada, Rusiyada, Skandinaviya ölkələrində də başladı.

XVIII əsrin son onilliyi və XIX əsrin başlanğıcının erkən romantizmi köhnə dünya tərəfdarlarının yaranmaqda olan yeni ictimai münasibətlərə olan etirazı parlaq şəkildə öz ifadəsini tapır.

Baş verən siyasi, iqtisadi və ideoloji irəliləyişlər köhnə dünya tərəfdarlarında qorxu, həyacan, pərtlik yaradaraq gələcəyə ümidlə baxmaqlarına mane olur, gələcəyə ümidsizlik yaradır.

Ümidsizlik, çarəsizlik, bədbinlik, mistika, uzaq keçmişə istinad – bu mürtəce cərəyanın səciyyəvi xüsusiyyətləridir.

Mürtəce romantiklər maarifçilik fəlsəfəsinə qarşı fəal mübarizə aparırdılar.

Cəmiyyətin demokratik və inqilabi qüvvələri müxtəlif ölkələrdə Fransa burjua inqilabının nəticələrindən narazı qalmışdılar.

Dərin ziddiyyətləri olan burjua cəmiyyətinə qarşı etiraz mürtəce romantizmdən kəskin şəkildə fərqlənən başqa bir romantizm formasında öz ifadəsini tapırdı. Bunlar mütərəqqi romantizm adlanırdı. Mütərəqqi romantiklər Şelli, Bayron, Hüqo, Sand Maarifçilik və inqilab ideya və ənənələrinə sadiq qalır onlar ağılları yaxınlaşmaqda olan inqilaba hazırlayan insanlara düşmənçilik mövqeyində duranlara qarşı ciddi mübarizə aparırdılar.

Romantizm tərkibində formalaşan iki axın – mürtəce və mütərəqqi romantizm öz ideya istiqamətlərinə görə bir-birinə düşmənçilik mövqeyində dururdular. Mütərəqqi romantiklər (Bayron, Şelli, Hüqo, J.Sond) öz yaradıcılıqlarında geniş xalq kütlələrinin maraq və mənafeyini müdafiə edir, onların yaradıcılıqları demokratik ruhludur. Onların inqilabi hərəkətlə bağlı yaradıcılığı çox vaxt açıq-aydın inqilabi mahiyyət kəsb edirdi. İnqilabi romantizm termini Bayron və Şelli yaradıcılığına tamamilə uyğun gəlir.

Romantizm bədii üsullar toplusu deyil,  onu təkcə fantastik süjetlə və kəskin dramatik münaqişələrin təsadüflər nəticəsində açılması ilə səciyyələndirmək olmaz.

Romantik dünyagörüşün səciyyəvi xüsusiyyəti real həyat hadisələrinin müəllif tərəfindən subyektiv qiymətləndirilməsidir. Bu isə çox vaxt hadisələri səhv dərk etməyə, bəzən də həyatın inkişafının obyektiv qanunauyğunluqlarını səhv başa düşməsinə gətirib çıxarır.

Kapitalist cəmiyyəti həqiqətləri romantikləri razı salmır, onlar “bu cəmiyyətin eyiblərini necə aradan götürməli?” –sualına cavab axtarırlar.

Romantizmin əsas xüsusiyyətləri real həyat hadisələrinin qiymətləndirilməsinə subyektivliyin üstünlük təşkil etməsin və bunun nəticəsi - idealla reallıq arasındakı uyğunsuzluqdur.

Mürtəce romantiklər keçmişi bərpa etməyə çağırır, istəyirlər ki, tarixi inkişaf dayansın, bəşəriyyət keçmişə dönsün.

Mütərəqqi romantiklər isə XIX əsrin başlanğıcında möhkəmlənmiş burjua cəmiyyəti şəraitində ziddiyyətlərlə üz-üzə qalmışdılar. Bu ziddiyyətlərin dəf olunmasında daha mükəmməl ictimai münasibətlər axtarışında çox vaxt utopiya ilə üz-üzə qalırdılar. Bu onların məcburi tarixi məhdudiyyətləri idi. Onların məqsəd və idealları mücərrəd və illüziyalı səciyyə kəsb edirdi.

Mütərəqqi romantiklərin idealları ictimai inkişafı qabaqlayırdılar.

Onların dünyagörüşü ziddiyyətli idi və bəzən bu onlar tərəfindən patriarxal qayda - qanunların müdafiəsinə, yeni cəmiyyətin tarixi mütərəqqiliyinin inkişafına gətirib çıxarırdı. Tarixi prosesin dərk olunmasında subyektivizm çox vaxt onların özlərinin konsepsiyalarını işləyib hazırlamağa məcbur edirdi.

Romantiklər öz nəzəriyyələrində olduğu kimi yaradıcılıqlarında da ideal və reallıq arasındakı uyğunsuzluğu aradan götürməyə sövq edirdilər.

Mütərəqqi romantizm estetikasında “Sənət sənət üçündür” devizi qəti şəkioldə inkar olunaraq ictimai -sosial əhəmiyyətli sənəti müdafiə edərək bu devizlə ardıcıl mübarizə aparırdılar. Lakin mütərəqqi romantiklərin “ İdeal real həyatı qabaqlayır” fikri çox aydın səslənir. L.Sand yazırdı: “Sənət real həyatın təsviri yox, ideal həqiqət axtarışıdır” V.Hüqo: “Bu gün insan qəlbi nin reallıqdan daha çox ideallığa ehtiyacı var”.

Estetik normaya çevrilmiş ideallıq və reallıq arasındakı kəskin fərq həyatın romantiklər öz qarşılarına cəmiyyət həyatının hərtərəfli və dərin təsvirinin verilməsi və bu həyatı idarə edən qanunların təsvirini vermək vəzifəsini qoymurlar.

Bunun əksinə olaraq O.Balzakın realistik metodunda insanı burjua cəmiyyəti həyatı qanunlarını ardıcıl oıaraq öyrənmək istəyi təəccübləndirir. Həmin qanunları öyrənmək , tarixə ekskurslar və məlumatlarşı O.Balzak sənətkarın əsas vəzifəsi hesab edirdi. Dərin tarixilik O.Balzak realizminin gözəl

xüsusiyyətini təşkil edir. O.Balzak üçün hər hansı müasir sona qədər açılması həyat hadisəsinin açılması onu yaradan tarixi şəraitin bugünkü vəziyyətini nəzərə almaqdır.

Mütərəqqi romantiklərin yaradıcılığındakı realistik tendensiyalar tamamilə qanunauyğun və zəruri idilər. Özünün "Səfillər" əsərində V.Hüqo kapitalist dünyasında səhil insanların yaranması prosesini, yüksək dairələrin özbaşınalığının dəhşətli səhnələrini dəqiq və aydın şəkildə araşdırarır, "Güləyən adam" əsrində XVIII əsr İnggiltərəsində xalqın dəhşətli dərəcədə hüquqsuzluğunu təsvir edir. Romantiklər dərindən inanırdılar ki, bəşəriyyətin tarixi hər .şeydən əvvəl ümumbəşəri başlanğıclar olan Xeyir və Şərin, Ədaləti və Həqiqətin timsalında özünü göstərir.

Romantizmi fərqləndirən cəhətlərdən biri də qeyri-adiliyə, .müstəsnalığa meyl, surətlərin titanizmiŞ, kəskin işıq ümsürləri, hadisələrin çox sürətlə inkişafı, gözlənilməz təsadüflərin həlledici rolu, fantastik və əfsanəvi obrazlardan, motivlərdən geniş istifadə edilməsi, qrotesk və kontrastlardan təsvir vasitəsi kimi geniş istifadədir.

Adi, gündəlik həyat miqyasında qəhrəmanın təsviri romantizmə yaddır. , Adilik -sənəti ölümüdür"- V.Hüqo belə deyirdi.

Mütərəqqi romantizmin çox bötük əhəmiyyəti vardı. Mütərəqqi romantiklər mürtəce sənətlə ciddi mübarizə aparırdılar. Mütərəqqi romantizmi klassiklərin kosmopolitizmi ilə apardıqları mübarizə ona görə böyük əhəmiyyətə malik idi ki, onlar sənətdə millilik prinsiplərini müdafiə edirdilər. Klassiklər milli tarixi inkar edərək bir qayda olaraq antik mədəniyyətə müraciət eedirdilər.

Milli səntin və həmin sənətin xəlqiliyinin təsdiqi romantiklərin böyük xidməti idi. Onlar öz xalqlarının keçmişinə müraciət edir, onu öyrənməyə başlayır, xalq poeziyası və onun qəhrəmanları və mövzularla maraqlanırdılar. Bu Valter Skott, Viktor Hüqo, Qrimm qardaşları yaradıcılığına xasdır.

Mütərəqqi romantiklər əzilən xalq mövzusunu sənətə gətirmişlər. XX əsr tənqidi realizminə yolunu xıx əsr ədəbiyyatı inkişafının bir mərhələsi olan mütərəqqi romantizm salmışdır.

Romantizm anlayışını tarixdə ilk dəfə olaraq Fridrix və Vilhelm Şlegel qardaşları işlətmişlər. Romantizmin yaranmasının əsas səbəbi 1789-1794-cü inqilabı başa çatdıqdan sonra insanın insan tərəfindən istismarıNın güclənməsi, maarifçi mütəfəkkirlərin parlaq vədlərinin həyata keçməməsi, sinfi ziddiyyətlərin daha da dərinləşməsi nəticəsində yaranan bədbinlik, ümidsizlik və şaşqınlıq olmuşdur.

Romantizmi, hər şeydən əvvəl, bir ümumdünya mədəniyyət və sənət hadisəsi hesab edən tədqiqatçı ilk dəfə olaraq bu ədəbi cərəyanın manifesti məsələsini qoyur və bunun dünya ədəbiyyatında vahid manifestə əsaslanmadığı qənaətinə gəlir. Çünki romantizm ayrı-ayrı xalqların ədəbiyyatında fərqli zaman və məkanlarda yaranıb. Özü də manifestin iki şəkildə ortaya çıxdığını görürük: birincisi, sənətkarlar romantizm haqqında ayrıca manifestlərini elan etməmişlər, yalnız ya bədii əsərlərində, ya da məqalə və yazılarında, yeri gəldikcə, bu sənət konsepsiyası ilə bağlı fikirlərini bildirmişlər; ikincisi, romantiklər romantizm nümunəli əsərlər yazmaqla yanaşı, həm də onun manifestini, ideya-estetik prinsiplərini işləyib hazırlamışlar. İkinci məsələyə ən yaxşı nümunə kimi Viktor Hüqonun yaradıcılığı götürülür. V.Hüqo dünya arenasında romantizmin görkəmli nümayəndəsi kimi romantik əsərlər yazmaqla yanaşı, romantizm estetikasının nəzəri-estetik prinsiplərini də işləyib hazırlamış və klassizmin qarşısına yeni bədii-estetik düşüncə ilə çıxmışdır. 1827-ci ildə "Kromvel" dramına yazdığı "Ön söz" həm də romantizmin manifesti olaraq qəbul olunur. V.Hüqo Avropada yazılan dram əsərlərində antik yanaşmanı inkar edir və romantiklərin də içində olduğu klassik faciənin vacibliyini önə sürürdü. Böyük romantik "Ön söz"ündə qoyduğu problemləri "Kromvel" dramında tədbiq edərək "yamsılamaq elementi" ilə "qrotesk eybəcər incəsənətin əsas elementidir" fikirlərini bir-birilə uzlaşdıra bilir. Yəni onun yanaşmasına görə bu elementlərin biri digərinə mane olmur. Yazıçı bu tendensiyanı "Paris Notr-Dam kilsəsi" əsərində də qoruyub saxlaya bilmişdir. Ümumiyyətlə, monoqrafiyada V.Hüqonun nəzəri fikirləri ilə əsərlərinin bir konsepsiya kimi üst-üstə düşməsi və dünya romantizminin bu manifest üzərində təşəkkülü yaxşı əsaslandırılır. Müəllifin romantizmin böyük bir coğrafiyada fərqli zaman və məkanlarda, ayrı-ayrı xalqların ədəbiyyatında təzahürünü nəzərə alaraq belə bir qənaəti tamamilə doğru səslənir:

"Bununla belə, romantizm heç də bütün zamanlarda yalnız bu manifest üzərində qərar tutmamışdır. Sonrakı mərhələlərdə romantizm realizm və maarifçi realizmlə qaynayıb qarışmış, keçmişə məhəbbət, gələcəyə münasibət duyğuları ilə daha da zənginləşmişdir". Monoqrafiyanın "Romantizm estetikası və onun xüsusiyyətləri", "Romantizmin sənət konsepsiyası", "Romantizmin fəlsəfi əsasları", "Romantizmdə insan konsepsiyası" yarımfəsillərində dünya romantizmi nəzəri cəhətdən təhlil edilir.

"Dünya ədəbiyyatında romantizm" problemi qoyuluşu və elmi həlli baxımından son dərəcə geniş və əhatəlidir. Romantizmin ən yaxşı şəkildə təzahür etdiyi alman, ingilis, fransız, polyak, italyan, rus, ispan, Danimarka, macar, Norveç, İsveç, Amerika, türk romantizminin özünəməxsus inkişaf xüsusiyyətləri izlənilir. Ümumiyyətlə, ilk dəfədir ki, ədəbiyyatşünaslığımızda dünya romantizmi bu şəkildə əhatəli və detallı tədqiq edilir. Romantizmin meydana gəlməsinin estetik zəmini, ilkin şərtləri, eləcə də inkişaf yolları, romantik məktəbləri, romantizmöncəsi və sonrası kompleks şəkildə təhlil olunur. Dünya xalqlarının romantizm hadisəsinin bir tədqiqatda araşdırılması həm bu xalqların ədəbiyyatındakı romantizm ədəbi cərəyanını izləməyə, həm də onların bir-birinə təsirini, romantizmlər arasındakı paralelizmi, fərqləri izləməyə imkan verir. Alman romantizmində fəlsəfi çalarlar, ingilis romantizmində Xeyir-Şər qarşıdurması, fransız romantizmindəki "dünya kədəri" və s. xüsusiyyətlər romantizmin nə qədər zəngin mənəvi arsenala malik olduğundan xəbər verir. Polşa romantizminin yaranmasının ilkin şərtləri kimi sosial-siyasi məsələlərin önə çıxdığını qeyd edən müəllifin bu qənaəti razılıq doğurur: "...milli azadlıq hərəkatı Polşada romantizmin inkişafının başlıca zəmini kimi özünü göstərdi. Romantizm bir ədəbi cərəyan olmaqla bərabər, milli dünyagörüşün formalaşmasında da xüsusi rol oynadı. Romantik şairlər xalqın mənəvi rəhbəri olmağa çalışır və bu istiqamətdə səmərəli fəaliyyət göstərirdilər". Monoqrafiyada ayrı-ayrı xalqların ədəbiyyatında romantizmin təşəkkül problemləri ilə yanaşı, yeri gəldiyində örnək nümayəndələrinin yaradıcılığı ilə də tanış oluruq.

Monoqrafiyanın Azərbaycanla bağlı fəsilləri də problemlərin qoyuluşu və həlli baxımından yenidir. Bu yenilikləri biz milli romantizmin başlanğıcı, inkişaf yolu və

mərhələlərində görürük. "Azərbaycan romantizmi və onun ideya-bədii xüsusiyyətləri", "Azərbaycan romantizminin başlanğıcı", "Azərbaycan romantizminin mərhələləri", "Azərbaycan romantizminin milli hərəkat dövrü", "Azərbaycan romantizminin sosrealizm mərhələsi", "Füyuzat" jurnalı və romantiklər" bölümlərində indiyədək romantizmin öyrənilməsindəki boşluqlar doldurulur. Müəllif nəinki romantizmdəki bir çox məsələlərə aydınlıq gətirir, hətta gələcək araşdırmalar üçün də yeni imkanlar yaradır. Professor T.Əfəndiyev milli romantizmin keçdiyi özünəməxsus yolun inkişaf problemlərini düzgün müəyyən edir, onu Avropa və türk romantizmindən ayıran cəhətləri bəlirləyir. Bu tədqiqatlardan aydın olur ki, Azərbaycan ədəbiyyatında romantizmin başlanğıcı və yaranması tarixi düzgün müəyyənləşdirilməyib; romantizm vahid məzmuna malik cərəyan kimi götürülməyib, bu ədəbi cərəyanın üzərindən hələ də "mütərəqqi" və "mürtəce" epitetləri götürülməyib, "mürtəce" hesab olunanların yaradıcılığı hələ də tam olaraq üzə çıxarılmayıb və qiymətini almayıb. Yaxud romantizmin yaranması 1905-ci il inqilabı ilə əlaqələndirilib, onun mövcudluğu 1905-1917-ci illə məhdudlaşdırılıb və s. Əlbəttə, bunlar monoqrafiyada qoyulan problemlərin az bir qismidir; lakin elə bunlar da müəllifin milli romantizmşünaslığımızda bir çox problemlərin yerinə düzgün oturdulması səyini təsdiq edir. Götürək, romantizmin başlanğıcı məsələsini. İndiyədək (bəzi istisnaları çıxmaqla) Azərbaycan romantizminin başlanğıcını 1905-ci il inqilabı ilə başlayırdılar. Bu yanlış tendensiya ötən yüzilliyin 60-cı illərindən başlayara

Romantizm dünya mədəniyyəti və incəsənəti xəzinəsinə çoxasylı dahi şair və yazıçılar - Almaniyada Novalis, E.A.Hoffman, H.Heyne, Şiller, İ Höte, İngiltərədə P.B.Şelli, C.N.Bayron, Fransada J.Sand, V.Hüqo, Azərbaycanda H.Cavid, M.Hadi, A.Səhhət və başqalarını bəxş etmişdir.

## Mövzu 2
## Novalisin yaradıcılığı, Hoffman

**Plan:**

**1. XVIII əsrin 90-cı illərində romantizm.**

**2. Novalisin həyat və yaradıcılığı**
**3. Novalis yaradıcılığında məhəbbət mövzusu**
**4. “Henrix fon Ofterdingen” əsəri.**
**5. E.A.Hoffmanın həyat və yaradıcılığı.**
**6. “Kallosayağı fantaziyalar”,“Qızıl qazan”, ”Balaca Saxes” əsərləri**
**7. E.Hoffmanın hekayə və novellaları**

**Ədəbiyyat:**


**1. Ə.Xəlilov Dünya ədəbiyyatı tarixi. VII c. Ali məktəblər üçün dərslik.Bakı “Bilik” 2013.**
**2. Ə.Zeynalov Şərq F.Volter yaradıcılığında. Azərbaycan Milli Elmlər**
**3. Akademiyasının Nəşriyyatı. 2001.**
**4.Bədəlbəyli Ü. Ingilis ədəbiyyatı tarixinə aid oçerklər. Bakı 2009.**
**5. V.Y. Baxmutskiy, Bojor Y.N. İstoriya zarubejnoy literaturı XVIII veka. Visşaya şkola. Moskva , 1967.**


Şair və filosof Novalis XVIII əsrin 90-cı illəri romantizminin nümayəndəsidir. Novalis Fridrix fok Hardenberqin ədəbi təxəllüsüdür. O, zadəgan ailəsində anadan olmuş, atasının istəyi ilə İlk, Leypsiq və Buttenberq universitetlərində hüquq elmlərini öyrənmiş, fəlsəfə və ədəbiyyatla məşğul olmuşdur.

Erkən vəfat etmiş Novalisin əsərlərinin əksəriyyəti ya yarımçıq, ya da müəllifin sağlığında çap olunmamışdır. Onun yaradıcılığında fraqment qeydlər xüsusi yer tutur, onların bir hissəsini müəllif özü çap etdirmişdir.

Başa çatdırılmış və öz sağlığında nəşr olunmuş azsaylı əsərlərdən biri “Gecəyə himn” əsəridir (1810-cu ildə “Ateneum” jurnalında dərg olunmuşdur). Bu əsərin yazılmasına səbəb şairin sevgilisinin ölümü olmuşdur.

Ritmik nəsrlə yazılmış lirik düşüncələrdə Novalis gecəni vəsf edir. Onun üçün gecə ideal mənəvi mütləq dünyanın rəmzidir, həmin dünya ötəri, yəni real dünyaya qarşı qoyulur. “Himn”lərdə ölüm və axirət dünyasını təbliğ edən xristianlıq tərənnüm olunur.

Əgər  Fridrix Şlengel Tin üçün dünya yaradıcılığı “mən”in məhsuludursa “Gecəyə himnlər” də Novalis hansısa “mütləq ruh” axtarır, bu ruhu dünya alman romantizmi tarixində ilk dəfə olaraq xristian kilsəsinin axirət dünyasına uyğun şəkildə təsvir olunur.

Novalisin “Sausda şagirdlər” yarımçıq qalmışdır. Bu əsər təbiət fəlsəfəsinə həsr olunmuş və Novalisin  Frankfurt geologiya institutunda təbiət elmləri ilə məşğul olmasından yaranan təəsüratların təsiri altında yaranmışdır.

Novalisə görə təbiət öz-özlüyündə sonsuz hadisələrin qarşılıqlı əlaqəsidir, bu əlaqədə o, bütöv dərk olunmalıdır, bu dərkolunma şüurun  yox, hissiyyatın köməyi ilə həyata keçirilməlidir. Araşdıran ağıl yox, cəmi-cümlətanı mistik “məhəbbət”  hissi təbiəti dərk etməyə aparan yoldur, buna görə də təbiəti alim-təbiətşünas yox, xüsusi “hissiyyat” qabiliyyətinə malik şair daha yaxşı dərk edir. Belə dərketmə isə Novalisin təbiəti “insan ruhunun rəmzi” kimi başa düşməsinin idealist ifadəsidir. Təbiətin hiss olunması eyni zamanda onun “insaniləşdirilməsi”, yəni onun ruhu mahiyyətinin açılmasıdır. Təbiətin “insaniləşdirilməsi”, yəni onun maddi varlıqdan “azad olunması” və “təmiz ruhiliyə” çevrilməsi insanın istək və vərdişlərinin son məqsədidir.

İnsanı  Novalis “təbiətin ali fəaliyyəti” adlandırır. Bu ideyalar özünü “Sausda şagirdlər”də yerləşdirilmiş nağılda ifadə edir. Yeniyetmə Tuatsit Rozaçka adlı qızı sevir. Lakin göylərdən zühr etmiş insanı acgözlüklə dinlədikdən sonra Tuatsit də “dünyanın sirrini” açmağa güclü istək yaranır. O, müqəddəs ilahə İzidanı axtarmağa yola düşür. İzida bütün əşyaların anasıdır, dünyanın sehrinin rəmzidir. Tuatsit məbədə yuxuya gedir, yuxuda İzidanın üstünə çəkilmiş örtüyü açır, nəticədə sevgilisi Rozoçka onun ağuşuna düşür. Dünyanın sirrini açan məhəbbətdir.

Novalisə görə məhəbbət insanın mənəvi fəallığının ən yüksək ifadəsidir. Novalis idealist dünyagörüş nümayiş etdirir: ruh birincidir, təbii təxəyyülün əsl yolu elm və təcrübə yox, hissiyyatdır.

Bütün bu ideyaları Novalis özünün mərkəzi əsəri olan “Henrix fon Ofterdingen” əsərində ifadə edir. Romanın əsas qəhrəmanı yarıməfsanəvi alman şairi Henrix fon Ofterdingendir.  Roman yeniyetmə Henrixin gördüyü yuxunun təsviri ilə başlanır. Yuxuda mavi çiçək gördüyündən əhval-ruhiyyəsi pisləşir. Henrix

Eyzenaxdan Ausburqa babasının yanına gəlir. Bayram şənliyində şair Klinqsor və onun qızı Matilda ilə tanış olur. Henrix qıza vurulur. Klinqsor Henrixə nağıl danışır bu nağılı romanın "İntizar" adlanan birinci hissəsi bitir. Birinci hissə şairin püxtələşməsidir. Mavi çiçək haqqında yuxu sanki gələgək şairin peçəsi haqqında dumanlı təsəvvürdür.

Henrix dünyanı və özünü qeyri-fəal şəkildə dərk edir, dərketmə prosesi Henrix üçün özünü dərk etməyə çevrilir, yenilik lap başlanğıcdan onun ürəyinə yol tapmışdır. Novalisə görə şairlər yazıçılar dünyanı beləcə dərk edirlər və bu dərketmə forması lap yüksək səviyyəlidir.

"Vüsal" adlanacaq II hissədə Matildanı sevən və şair olan Henrix təbiətin xilaskarına çevrilməli, romanda Klinqsorun nağılı kimi Qızıl əsrin başlanması, yəni "təmiz mənəviyyat"ın başlanması ilə bitməli idi.

Romandakı bütün məsələlərin mərkəzində yaradıcı insan durur. Novalisə görə məhəbbət insanın yaradıcılıq imkanının ən yüksək ifadəsidir.

Novalis özünün bu romanını Hötenin Vilhelm Meyesterin şagirdlik illəri" romanına cavab kimi yazmışdı. Hötenin bu maarifçi romanındakı real mahiyyət Novalisi qıcıqlandırırdı.

Höte romanının əksinə olaraq Novalis öz romanında poeziyanın real həyat üzərindəki qələbəsini göstərmək istəmişdi, o istəyirdi ki, qəhrəmanın tərbiyə tarixçəsini danışsın.

Hötenin timsalında Marifçiliklə romantika Novalisin bu romanını çuğlamışdır. Bu romanın bədii metodu, sənət sosuzluğun rəmzi təsviridir" fikrinin ardıcıl həyata keçirilməsidir.

Nə qədər ki, Novalis üçün başlanğıc ilkin və həqiqətdir, bu roman insanın işləkləri haqqında təsvir olmaqdan uzaqlaşır, rəmzi, alleqorik nağıla çevrilir, romanın persanajları asanca bir-birinə qarışan rəmzlərə çevrilirlər.

Romantizmin simvoluna çevrilən mavi çiçək rəmzi də çoxplanlı miqyas əldə edir. Mavi çiçək Henrixin nə üçünsə yaşadığı iztirabların, sevgilisi Matildanın və Qızıl Əsrin rəmzinə çevrilir.

## ERNEST AMODEY HOFFMAN

Almaniya sərhəddlərindən kənarda ən məhşur alman romantik yazıçısıl Ernest Amodey Hoffmanın yaradıcılığı əsasən irtica illərinə təsadüf edir.

Onun yaradıcılığında realistik tendensiyalar başqa alman romantik yazıçılarının yaradıcılığına nisbətən daha güclü çıxış edirlər. E.Hofmanın hər bir fantastik surətlərinin arxasında demək olar ki, həmişə onun müasiri olduğu real həyat nəzərəçarpacaq münaqişələri durur. Onun zəngin yaradıcılıq fantaziyasında ətraf aləmin cılğınlıqla təsviri əsrə güclü məna və bədii effekt verir. H.Heyne Novalislə E.Hoffmanı müqayisə edərək yazırdı: ”Novalis özünün ideal obrazları ilə mavi səmada daim pərvazlanırdısa, Hoffman özünün karikatura maskaları ilə həmişə yer həqiqətlərindən yapışmağa çalışırdı.

E.A.Hoffman Keniqsberqdə məmur ailəsində anadan olmuş , böyü müş və tərbiyə olunmuşdu. ON altı yaşında hüquq elmlərini öyrənmək üçün Keniqsberq universitetinə daxil olmuşdu Təhsil illərində rəssamlıq, musiqi və ədəbiyyata maraq göstərirdi. Universiteti bitirdikdən sonra isə QloqauN Berlində, Polşa şəhərləri Poznan və Plotskda xidmət etmiş Varşavaya gəlmişdi. İyen ətrafındakı döyüşlərdə Prussiya ordusunun məğlubiyyətindən sonra Napoleon ordusunun Varşavaya girişi E.Hoffmanın həyatına güclü təsir etmiş, Prussiya idarələri buraxılmış, məmurlar buraxıldığına görə 1807-ci ildə E.Hoffman Varşavadan gedir. Bamberq, Leypsiq , Drezden teatrlarında dirijor işləmiş, rvlərdə musiqi dərsləri vermişdir.

1814-cü ildə E.Hoffman yenidən Berlinə gələrək məmur və yazıçı kimi həyat tərzi sürməyə başlayır.

E.Hoffmanın ilk əhəmiyyətli novellası ”Kavaler Qlyuk” 1809-cu ildə nəşr 0olunmuşdur. Bundan sonra onun başqa əsərləri də çap olunmuş, tezliklə onlar ”Kallosayağı fantaziyalar” məcmuəsində toplanaraq çap olunmuşdular. (1814-1815) Bu vaxtdan sonra 1814-cü ildə yazdığı ”Undina” operasının uğuruna baxmayaraq E. Hoffman özünü ədəbiyyata həsr etməyi qərara aldı.

Onun ilk məcmuəsi olan ”Kallosayağı fantaziyalar”da sənət və sənətkar mövzusu mərkəzi mövzu idi. Bu məcmuəyə daxil olan hekayələrdə musuquçi və bəstəkar İohann Kreysler obrazı yaranır. Bu E.Hoffman tərəfindən yaradılmış ən gözəl bədii obraz idi.

Çox istedadlı və güclü fantaziyası olan və sənəti ehtirasla sevən Kreysler əhatəsindəki filister-əclaflardan çox zərbələr alır. Burjua filisterləri əsil böyük sənət əlçatan deyil, onlar özünü unudaraq sənətə xidmət edən əsil böyük sənətkarı da başa düşmürlər. Bu cəmiyyətdə sənət alçaldılmışdır və ancaq tox və özündənrazı , sənətdən xəbəri olmayan insanların mənasız həyatını bəzəmək üçün lazımdır.

Bu cəmiyyətə musiqinin məqsədi insana xüsusi şəkildə xoş əyləncə bəxş etmək, onu ciddi işlərdən uzaqlaşdırmaqdır. Buna görə də bu cəmiyyətin nöqtei –nəzərinə görə " axmaqcasına özünü ancaq insanlara əyləncə və istirahət gətirən işlərə həsr etmiş sənətkarlar yaramaz və lazımsız insanlardırlar. "

Filister dünyası son nəticədə Kreyslerin ağlını itirərək dəli şəklinə salır. Bundan E.Hoffman yer üzündə sənətə yer omamamsı haqqında romantik nəticə çıxarır.

Müasiri olduğu burjaziya və zadəgan cəmiyyətini satirik dillə təsvir edən E.Hoffman həmin cəmiyyəti məhz sənətə münasibət mövqeyindən təqid edir.B

unu müəllif insanları və ictimai münasibətlərin də qiymətləndirilməsinin əsas kriteriyası kimi qəbul edir. Bununla da E.Hoffman Fridrix Şlegeli, Tiki və başqa erkən alman romantik yazıçıların ənənələrini davam etdirir. Əsil insanlar sənətkarlar və sənətə təmiz qəlblə və sadaqətlə xidmət edən və onu həyatları qədər sevən adamlardırlar. Belələri çox azdırlar, onları faciəli qismət gözləyir.

Müasiri olduğu cəmiyyətin təkcə musiqiyə münasibət mövqeyindən tənqidi, sənətkarın cəmiyyət tərəfindən alçaldılmış əsil insan kimi təqdim edilməsi E.Hoffmanın romantik pessimizmini göstəri. Bu pessimizm onu cəmiyyətdə öz yerini tutmuş hərtərəfli inkişaf etmiş şəxsiyyət ideyasını irəli sürən maarifçilərdən də fərqləndirir.Düzdür,E.Hoffmanda müasiri olduğu cəmiyyətdə sənətin sosial ictimai problematikasının və sənətkarın taleyinin təsviri İen romantilkərin təsvirindən daha realistikdir. daha realistik başa düşülür. “Kallosayağı fantaziyalar” məcmuəsinə daxil edilmiş “Qızıl qazan” povestində əsərin qəhrəmanı xarakterik romantik obrazdır. Anselm zəngin intellktli və daxili dünyası olan bir qəhrəmandır. O, adi həyatda son dərəcə zəif və köməksizdir. Kreysler kimi Anselm də iki – arzu və həyəcanlarla dolu daxili və qayğılarla

dolu adı həyat dünyasında yaşayır. Əgər Kreysler surətində arzu və həyat reallığı arasındakı münaqişə faciəvi səciyyəlidirsə, Anselm surətində bu münaqişə komik şəkil alır.

“Qızıl qazan” əsərində situasiya hər şeydən əvvəl nağılvarı şəkildədir: qəhrəmanın qəlbini ələ almaq uğrunda qara və işıqlı qüvvələr çarpışırdılar.

Qara qüvvələri gündəlik həyatda olan filister dünyası təmsil edir: bu Anselmin arvadı olmağı arzulayan məhdud dünyagörüşlü meşşan Veronika və koprektor Paulmann və reqisrtator Heyerbrandtdır. Adıçəkilənlər məhdud dünyagörüşlü məmurlardırlar. Bu filister dünyasının özünəməxsus mistik davamı var: Veronikanın cadu yolu ilə Anselmi ələ alaraq Veronikanın hesabına yaşamaq istəyən rəhmsiz cadugər qadındır.

İşıqlı qüvvələr də yerüsti və fövqəltəbii təcəssümə malikdir. Bu sehirli qüvvələrin başçısı olan arxivarius Lindxorot və onuin qızılı-yaşıv rəngli ilan qızı Serpentinadır.

Povestdə işıqlı qüvvələrin qələbəsi arzularlsa dolu daxili dünyanın eybəcərliklərlə dolu gündəlik qayğıları ilə dolu həyat dünyası üzərindəki qələbəsidir. Bu qələbə Anselmin Serpentina ilə evlənməsi və sehrlərlə dolu Atlantida adlanan xoşbəxt həyatı ilə rəmzləşir . Sonuncu arzularla dolu daxili dünyanın sübutudur.

Peal dünya və onun qanunları Hoffman üçün başqa romantiklərdən, ilk növbədə Novalisdən fərqli olaraq daha böyük əhəmiyyət kəsb edir. Real dünyanın qanunları E.Hoffmanın işıqlı fantaziyalarına nəzərəçarpacaq düzəlişlər edir.

Özünün sənət haqqındakı mülahizələrində E.Hoffman reallıq və həqiqilik nə ilə sə mənəviliyin ifadəsidir mövqeyindən çıxış edir.Özünün yaradıcılıq manerasını E.Hoffman “Kallosayağı fantaziyalar”da XVII əsr fransız sənətkarı Jak Kallonun manerasında olduğu kimi adi həyat hadisələrini qeyr-adi romantik şəkildə təsvir etməi xoşlayır.

1819-cu ildə yazdığı “Sinnober ləqəbli balaca Saxes” nağıl-povestin E.Hoffmanın ən yaxşı qrotesk –satirik əsərlərindəndir Nağılda balaca dəcəl Saxesin su pərisi Rozenbelevertddən üç qızılı rəngli baş tükü aldıqdan sonra

o hamının gözündə gənc yaraşıqlı oğlana çevrilir, Saxes olduğu yerdə yaxşı nə baş verirsə bunun Saxes tərəfindən edildiyi başa düşülür. Bütün təriflər və mükafatlar ancaq Saxesə qismət olur. Bütün bunlar hər cür qeyri-təbiiliyin qadağan edildiyi knyaz Pafkutun ölkəsində baş verir. Bununla bərabər sehrli qüvvələr hökmranlıq etsə də onlara təkcə şair Baltazar tabe olmur. Bununla E.Hoffman sübut etmək istəyir ki, burjua cəmiyyətində bəxşişlər və mükafatlar zəhmətkeşlərə yox, zəhmətsiz həyat tərzi və başqalarının zəhmətinin bəhrələrini mənimsəyənlərə qismət olur.

E.A.Hoffman həm də gözəl hekayə ustasıdır. O,1817-ci ildə nəşr olunan "Gecə hekayələri " və"Serafim qardaşları"( 1819-1821) məcmuəsinə daxil olan çoxsaylı novellaların müəllifidir. Novellaların bir hissəsi isə müəllifin ölümündən sonra 1825-ci ildə çıxan "Son hekayələr" məcmuəsinə daxil edilmişlər.

Alman romantik yazıçılarından təkcə E.A.Hoffman rus oxuculrı arasında ən məhşurudur. Rus oxucusu 1822-1823-cü illərdə Hoffman yaradıcılığı ilə onun hekayələrinin tərcüməsi ilə tanış olmuşdu.

XIX əsrin 30-cu illərindən V.Q.Belinski tez-tez Hoffmanın əsərlərini xatırlayaraq onu dünya ədəbiyyatının ən böyük yazıçılarından biri adlandırır.

F.Kuperin yaradıcılıq yolunda üç mərhələni qeyd etmək olar: I mərhələ 1821-1826-cı illəri, II mərhələ-1826-1833-cü illəri və III mərhələ-1833-1850-ci illəri əhatə edir. Bu bölgü yazıçının dünyagörüşündəki dəyişikliklərə və yaradıcılığına müəyyən təsirlər etmiş amillərə uyğundur. Yaradıcılığının birinci mərhələsində F.Kuper Amerika demokratiyasına xas olan Bəşəriyyət tarixində Amerika Birləşmiş Ştatlarının xüsusi rolu haqqındakı xəyallara inanan bir yazıçı kimi çıxış edir.

ABŞ-nın qeyri-məhdud perspektiv və imkanlarına çox inanan F.Kuper bu ölkəni Avropa ölkələrində əsrlər boyu mövcud olan feodal qayda-qanunlarına, adət-ənənələrinə, mənəviyyatına qarşı qyaraq respublika quruluşunun mütləqiyyət quruluşundan üstün olduğunu qeyd edir. İlk nromanları olan "Casus", " Losman"da tənqidi element hələ zəifdir.Burada F.Kuper Amerika inqilabını vəsf edir.

## Mühazirə 3

# Henrix Kleyst və Albert Şamissonun həyat və yaradıcılığı

Henrix Kleyst alman romantizmin gözəl nümayəndələrindəndir. Dram, hekayə və novella yazarıdır. Pyeslərində dram və tragedya üstünlük təşkil edir. Əsərlərində romantizm cərəyanının izləri görünür. Şair olmaqla yanaşı, hekayə və novella yazarı olan Henrix 1777-ci ildə Grankfurtda yoxsul zadəganailəsində doğulub və 1811-ci ildə Berlindəki Kleyner Vanse gölünün sahilində sevgilisi ilə birlikdə intihar edərək həyatına son qoyur. Az müddətli təhsil həyatından sonra Prussiya ordusuna daxil olur və leytenant rütbəsi ilə ordudan ayrılır. Sonrada Viadrina universitetində hüquq və fəlsəfə təhsili alır. Sonra Parisə ziyarət edir, ardından İsveçrədə yaşamağa başladı. Drezdenə səyahət etdiyi zaman fransız əsgərləri tərəfindən casus kimi həbs edilmişdir. Ölümündən sonra Almaniya ədəbiyyatında sənətkar kimi qiymətləndirilmişdir.

İlk dram əsəri olan **“Şroffenşteynlər ailəsi”(**1802) əsərində bir nəsldən olan 2 zadəgan ailəsindən bəhs edilir. Bu iki gənc bir-birini sevir lakin ailələr arasındakı düşmənçilik gənclərin ölümünə səbəb olur. Əsərin sonunda gənclərin cənazəsi üzərində bu ailələr barışırlar. Əsərdəki qəhrəmanlar bir-birilərini başa düşmür, bir-birilərinə inanmır və onlar tək qalmış adamlardır.

**“Sındırılmış kuzə”** (1803-1806) komediyasında isə müəllif həyatı görmək, onu yığcam və konkret şəkildə təsvir bacarığını nümayiş etdirir. Komediyada ictimai motivlər verilmişdir. Lakin həyatın əhatəli şəkildə vüsəti zəifdir. Komediyada ictimai motivlər verilmişdir. Burada hakim dairədə olanların aşağı təbəqədən olanların cəsarəti ilə qarşılaşdırılır. Adam öz işlətdiyi cinayətləri başqa insanların üzərinə atır. Lakin kəndli qızı Yeva bu hiyləgər Adama qarşı qoyulmuşdur. Yeva öz sevgilisini əsgərlikdən saxlamaq ümidi ilə həqiqəti bildiyi halda susur. Sonra Yeva özünü tənhalıqda görür, ümidləri boşa çıxır.

**“Pentezileya”** (1806-1807) Dramın mövzusu antik dövrdən götürülmüşdür. Əəsərdə Pentezileya və Axelin qanlı fəlakətə səbəb olan məhəbbəti təsvir olunmuşdur. Həyatdan və ictimai mühitdən təcrid edilmiş bu məhəbbət etik qaydalardan çox uzaqdır. Pentezileya və Axilin məhəbbəti qəti ehtirazların oyunu, yalqız qalmış adamların ruhlarının zaman və məkan xaricində qalmış döyüşüdür.

**“Hamburq şahzadəsi Fridrix”** dramı müəllifin daha realist məzmunlu romanıdır. Bu tarixi dramdakı hadisələr XVII əsrdə Brandenburq knyazlığında cərəyan edir. Əəsərin qəhrəmanı öz arzuları ilə yaşayan Hamburq şahzadəsi Fridrixdir. Məhəbbət və şöhrət xəyallarına dalan şahzadə həlledici döyüş zamanı verilən əmrlərə tabe olmur, istədiyi hərəkətləri edir. Gözlənilməz şəkildə qalib olurlar. Tabe olmayan şahzadəyə ölüm hökmü verilir. O, sevgilisi Natalyaya yalvarırki, knyazlığa müraciət edib onu bağışlatdırsın. Bir müddət sonra şahzadə bu hökmün ədalətli olduğunu təsdiqləiyir və qəbul edir. Əsərin məzmunu ondan ibarətdir ki, məhvedici köhnə ənənələr dəyişilməlidir.

**Şamisso Albert** (1871-1838) – alman yazıçı, təbiətşünas. Fransa inqilabı zamanı Şamissonun ailəsi Berlinə köçür. Şamisso ilk qələm təcrübəsini fransız dilində yazmışdır. O, 1801- ci ildən almanca yazmağa başlamışdır.

1815 – 1818-ci illərdə Rusiyaya məxsus “ryurik” gəmisində dünya səyahətinin iştirakçısı olmuşdur. Salplarda nəsil növbələşməsini kəşf etmişdir. Bitki coğrafiyasına aid əsərləri vardır. Yaradıcılığında mütərəqqi romantizmin və realizm ünsürləri birləşmişdir. “Peter Şmelinin başına gələn qeyri adi əhvalatlar” nağıl povestində insan ləyaqəti qızılın hökmranlığına qarşı qoyulur. Əsər nağılvari təvir olunur. Baş qəhrəman Şlemil öz kölgəsini içindən heç vaxt pul əksik olmayan kisəyə dəyişir. Bir müddət sonra ətrafdakılar hiss edirki onun kölgəsi yoxdur. Onu öz aralarına buraxmırlar. Peter nə qədər çalışsada bu cəmiyyətdə özünə yer tapa bilmir, odur ki, faciəli bir həyat yaşayır. Buda onun bədbəxtliyinə səbəb olur. Yaradıcılığında lirikasında mühüm yer tutur. İlk şeirlər kitabı 1831-ci ildə

nəşr olunmuşdur. XIX əsr Alman lirik şeiri tarixində Heyne ilə yanaşı, Şamisso da ictimai-siyasi hadisələri öz şeirlərində geniş təsvir etmişdir. Poeziyasında romantik şairlərin şeirlərində təsvir edilməyən mövzulara rast gəlinir. Məsələn; "Qadının məhəbbəti və həyatı", "Nəğmə və həyat lövhələri", "Leylək", "Dilənçi və onun iti". .amisso romantiklərin yolu ilə gedərək xalq yaradıcılığına müraciət etmişdir.Folklordan faydalanmaq onun yaradıcılığına bir saflıq, sadəlik, yumorluq və bədiilik gətirmişdir. "Sürgün olunmuşlar" poeması (K.Rıleyevin "Voynarovski" poemasının motivləri əsasında), dekabristlər haqqında şeirləri, P.J.Beranjeyə nəzirələr, "Dünya səyahəti" adlı gündəliyi var.

**Mövzu 4**

**İngiltərədə romantizm. P.V.Şelli**

**Plan:**

1. **İngiltərədə romantizmin yarandığı dövrdə tarixi şərait.**
2. **İngilis romantizminin səciyyəvi xüsusiyyətləri**
3. **P.V.Şellinin həyatı**
4. **Şellinin "Kraliça Mab" əsəri.**

**Ədəbiyyat:**


1. **Ə.Xəlilov Dünya ədəbiyyatı tarixi. VII c. Ali məktəblər üçün dərslik.Bakı "Bilik" 2013.**
2. **Ə.Zeynalov Şərq F.Volter yaradıcılığında. Azərbaycan Milli Elmlər**
3. **Akademiyasının Nəşriyyatı. 2001.**
4. **Bədəlbəyli Ü. Ingilis ədəbiyyatı tarixinə aid oçerklər. Bakı 2009.**
5. **V.Y. Baxmutskiy, Bojor Y.N. İstoriya zarubejnoy literaturı XVIII veka. Vısşaya şkola. Moskva , 1967.**


Romantizm İngiltərədə XVIII əsrin 70-ci illərində yaranmağa başlamışdı. İngilis cəmiyyətində romantik əhval-ruhiyyənin yaranmasına XVIII əsrin 50-ci illərinin sonunda baş verən aqrar-sənaye çevrilişi, şimali Amerika ştatlarının müstəmləkiçilik uğrundakı mübarizələri (1773-1778) təkan verdi. Engels aqrar sənaye çevrilişini "səssiz inqilab" adlandırdı.

Aqrar-sənaye çevrilişi bir tərəfdən böyük sənaye mərkəzlərini, əhalisinin çoxu fəhlə olan iri şəhərlərin inkişafına səbəb olur, digər tərəfdən kəndin kasıblaşmasına, son dərəcə yoxsullaşmasına, torpaqlarını itirmiş əhalinin fəhlə sinfi ordusunun say tərkibinin artmasına, XVIII əsr burjua inqilabını həyata keçirmiş yomenlər ordusunun yaranmasına səbəb olurdu. XVIII əsrin 60-70-ci illərindən ingilis fəhlə sinfinin qeyri-mütəşəkkil çıxışları başlanmışdı. Bu fəhlə hərəkatı öz yaranışına görə XVIII əsrin sonu XIX əsrin əvvəlləri ingilis utonik-sosialistləri Robert Oden İngiltərədə, Fransada Şarl Furye, Mabil, Sen-Simionun nəzəriyyələrinə borcludur. Utonik sosialist nəzəriyyəsi təkcə romantik yazıçılara yox, həm də XIX əsrin 30-40-cı illərinin tənqidçi realistlərinə də güclü təsir göstərirdi.

XVIII əsrin 90-cı illərində İngiltərədə başında xırda burjuaziya tərkibindən çıxmış inqilabçı-respublikaçı filosofların qurduğu demokratik partiya” yaranıb. Formalaşmağa başladı. Bu partiya rəhbəri ilə rusində ən məhşur şəxs məhşur amerika və ingilis inqilabçısı “London muxbir cəmiyyətinə” rəhbərlik edən Tomas Peyn idi.

1773-1778-ci illər amerika inqilabının təlatümlü hadisələri və 1789-1794-cü illər Fransa inqilabı Britaniya xalq kütlələrinin mübarizə əzmini artıraraq fəallaşdırır. Bu inqilabların məğlubiyyəti, maarifçilərin məhşur vədlərinin iflasa uğraması Avropa demokratlarının bir neçə nəslində bədbinlik və ümidsizlik yaradır, sənətdə elegik-romantik cərəyanın yaranmasına səbəb olurdu.

## P.B.Şelli (1792-1822)

P.Şelli məhşur ingilis romantik şairi Bayronun müasiridir. Bayron kimi Şelli də çox məhşur lirik şairdir. O da fransız inqilabının və İngiltərədə XVIII əsrin 80-90-cı illəri demokratlarının varisidir. Bütövlükdə isə onun yaradıcılığı Bayronun yaradıcılığında hər şeydən əvvəl öz nikbinliyi ilə fərqlənir. Şellinin ən kədərli şerlərində belə həyat eşqi ilə dolu nəticələr hiss olunur. “Sabahkı gün gələcək” frazasıŞellinin bütün yaradıcılığına epiqraf kimi qəbul edilir.

XIX əsrin başlanğıcı şairləri arasında P.B.Şelli təkcə siyasi zülmün ardıcıl tənqidi ilə yox, həm də iqtisadi istismarın ardıcılifşaçısı kimi də tanınır.

Bunun sayəsində müasiri olduğu cəmiyyətin P.B.Şellinin əsərlərində

tənqidi başqa romantiklərdə olduğundan daha dərindir. Əslində P.B.Şelli ilk sosialist şairdir və Individualizmin qəti tənqidçisidi, onun romantik qəhrəmanları özünü xalqa qarşı qoymur, əksinə, xalq kütlələri ilə sıx surətdə əlaqəlidirlər.

A.B.Şelli 1792-ci ilin avqust ayının 4-də Sassek qraflığında ingilis aristokratı nəslindən olan ailədə anadan olmuşdur.Atası ingilis kübarlarından idi.

XIX əsrin başlanğıcı yazıçıları arasında Şelli siyasi zülmün ardıcıl tənqidçisi olmaqla bərabər, xalq kütlələrinin iqtisadi istismarının ifşaçısı kimi seçilir. Məhz bunun sayəsində Şellinin əsərlərində kapitalist cəmiyyətinin tənqidi başqa romantiklərin yaradıcılığına nisbətən daha dərindir. Əslində Şelli ilk sosialist şairdir.O, sənətdə fərdiyyətçiliyi kəskin şəkildə tənqid edir., onun romantik qəhrəmanları özünü xalqa qarşı qoymur, əksinə, onunla ayrılmaz tellərlə bağlıdır.

12 yaşında Şelli İton kollecinə qəbul olunmuşdur. Kollecdə təhsil illərində o, yazdığı çoxsaylı şerlərində Sautini təqlid edir, çox mütailə edir.

Təbiət elmləri müəllimi Lundin timsalında Şelli özünə dost və himayədar tapır.

Gizli demokrat və respublikaçı Lund yeniyetməyə həyatı dərk etməkdə kömək edir, öz şagirdinə cəmi on il bundan əvvəl fransız inqilabçılarının şücaətindən ruhlanan qəhrəman insanlar XVI Lüdoviqin başını kəsmiş və Bostiliyanı dağıtmışlar. Ondan ruhlanaraq demokratik partiyada birləşərək “Müxbir cəmiyyətləri” yaratmışlar və üsyan qalxmış Parijlə məktublaşaraq özlərinin “azadlıq və ümumxalq bərabərliyi” əldə etmək arzularını açıqca bəyan etmişlər. Bu cəsur insanların iclaslarında bütün əzilənlərin müdafiəçisi, lordların və kralın düşməni Tomas Peyn çıxış edirdi. Məhz Lund Şellinin Vilyam Qodvinin “Siyasi azadlıq” əsəri ilə tanış etmişdi. Lundin dediyinə görə Qodvin ictimai şərin kökünü taparaq bəyan edir ki, vəfalı inhisarçılar kasıbların əməyinin məhsulunu mənimsəyirlər.

Məhz bu yolla Şelli J.J.Russonun irəli sürdüyü xalq hakimiyyəti ideyaları, maarifçilər Helvetsi, Holbax, Didronun ateist fikirləri ilə tanış olmuşdu, Volterin əsərlərini sevə-sevə oxuyurdu.

1810-cu ildə kolleci bitirən Şelli Oksford universitetinə qəbul olunur və özünün “Çar qatilinin qeydləri” siyasi şerlər məcmuəsini çap etdirir. Tam yetkin olmayan bu məcmuədə də çox dəyərli fikirlər vardı. Şelli burada sülh ideyaları ilə çıxış edir. Bu şerləri Oksford tələbələri və professorları oxuyur, hətta onları Londona da

göndərmişdilər. Hökumət bu üsyankar şerlərin müəllifini axtarmağa başladı heç də sakitləşməyən Şelli öz qarşısına universitet tərəfindən ilahiyyat fənnini çıxarmaq vəzifəsi qoymuşdu. Bu dəfə o, özünün "Ateizmin etirafı" kitabçasını çap etdirərək elmi şura üzvlərinə gizli şəkildə payladı. Onu universitetdən xaric etdilər.

Oğlu ilə bir neçə dəfə küsüşdükdən sonra mister Tamotti oğluna bir daha ata evinə gəlməmək əmrini verdi və 19 yaşlı Şelli taleyin ixtiyarına buraxdı.

Londona köçdükdən sonra Vilyam Qodvinin utopik sosializm ideyalarını dərindən öyrənərək onun qızı Haarridet ilə evləndi və Şotlandiyadan Edinburqa köçdü. Bundan çox narazı qalan valideyinləri ondan ata malına varislikdən imtina etməyə məcbur etdilər. Əmisi ona bir az pul verərək gənc ailəni aclıqdan ölməkdən xilas etdi.

1813-cü ildə Şelli özünün ilk böyük həcmli əsəri "Kraliça Mab" əsərini yazır. Burada o, təkcə mütləqiyyəti və lordizmi məhv etməyə çağırmır, həm də insan münasibətlərini eybəcərləşdirən dəllallığı lənətləyirdi. "Kraliça Mab" Şellinin bu janrda ilk əsəridir. Bu dövrünün ən vacib suallarına cavab verən yüksək səviyyəli bədii əsərdir. bu poemanın inqilabi-hümanist ideyaları üzərində ingilis qəhrəmanlarının çar nəsilləri tərbiyə olunmuşlar.

1814-1841-ci illərdə bu poema 16 dəfə bir milyonluq tirajla nəşr olunmuşdur. O dövr üçün bu çox böyük rəqəmdir."Kraliça Mab" tezliklə İngiltərədən kənarda da məhşurlaşdı. XIX əsrin 30-cu illərində yeniyetmə Engels Şellinin bu poemasına təqlid olaraq şerlər silsiləsi yazır, onlardan birinə isə "Sabahkı gün gələcək" epiqrafını seçir. Məlumdur ki, "Kraliça Mab" alman və fransız dillərinə 1816-1819-cu illərdə tərcümə olunmuşdur.

Romantik poema olan "Kraliça Mab" müəllifin sonralar etdiyi etirafa görə Sadtinin "Qalablar" və Bayronun "Çayld Haroldun zəvvarlığı" əsərlərinə təqlid kimi yazılmışdır.

Bununla bərabər Şelli bu məlum poemada şagird kimi yox, tam yetkin usta kimi çıxış edir. "Kraliça Mab" çox orijinal əsərdir.

Poemanın əsas qəhrəmanı gənc qız İante "Harld" da olduğu kimi poemanın kompazisiyasında əlaqələndirici və yaradıcı həlqədir. Yuxuda İante su pərilərinin kraliçası Mabı görür və o, İanteyə xoşbəxtliyə gedən yolu göstərmək üçün sehirli

arabada onunla birlikdə göylərə Günəşin görüşünə aparır. Mab və İante göy qübbəsinin mərkəzində yerləşən sehirli saraya gəlirlər. Mab sehirli ekranda bəşəriyyətin keçmişini, indisini və gələcəyini İanteyə göstərir. Poemada istismarçıların zülmündən cana gəlmiş xalqın ümumiləşmiş obrazını Şelli ön plana çəkərək göstərir ki, bu siyasi zülm iqtisadi istismarın nəticəsi olmaqla sosial ədalətsizliyin kökündür.

Şahzadə, keşiş və zəngin lord
Hamısı kasıb cibinə girirlər.

Poemanın V nəğməsində kapitalist inkişafının qaranlıq tərəflərini göstərir. Şair göstərirdi ki, dəllallıq ruhu ən yaxşı keyfiyyətdən düşməsinə iməğrurluğun, elmlərə istəyin, alicənablığın, sadəliyin qiymətdən düşməsinə səbəb olur.

Poemada dövrün əsl qəhrəmanları xalqın hüquqlarının qorxmaz müdafiəçiləri olan cəsur respublikaçılardan söz açılır.

Poemanın nikbinliyi diqqəti cəlb edir.Şellinin nikbinliyinin mənbəyi fəhlələrin azadlıq missiyalarını dünyanın mütləq krallardan, lordlardan, ümumuyyətlə istismarçılardan azad olacağına olan inamıdır.

Poemada ziddiyyətlər də var. İctimai zülmü inqilab yolu ilə məhv etmək zərurəti ilə (III-IV nəğmələr)Şelli VIII nəğmədə gözlənilmədən bütün sinfi ziddiyyətləri “insanın ictimai eyiblərini vegeterian pəhrizi ilə müalicə etmək” təklifi verir.

Sonuncu IX nəğmədə gələcəyin sinifsiz cəmiyyətini təsvir edir. Bəşəriyyət güclü maşınların köməyi ilə səhranı bağ-bağata çevirir, insanlar tamahkarlığın, sərvət toplamağın, nifrətin, rəhmsizliyin, qaniçənliyin, ikiüzlülüyün, yalanın və başqa eyiblərin nə olduğunu bilmirlər.Şelli özünün bu əsərində əsl hümanist kimi çıxış edərək əxlaqi, ictimai və iqtisadi zülmü mühakimə edir, Amerika zəncilərinin qul kimi işlədilməsinə, Avropada fəhlələrin təhqir olunmasına, müstəmləkəçiliyin işğalçı siyasətinə etiraz edir.

Poema XVIII əsr maarifçilərinin ateizm ideyaları ilə diqqəti cəlb edir.

Şellinin 1816-cı ildə yazdığı əsərlərin ən yaxşısı “Alastor və ya tənhalığın ruhu” əsəridir. Bu lirik əsər təbiətə, onun gözəlliyinə vurulmuş gənc şairdən bəhs edir. O, xoşbəxtliyi təbiətlə ünsiyyətdə tapmaq istəyir, insan cəmiyyətindən qaçır.

Lakin o həlak olur, özü kimi insanlardan qaçdığına görə, sadə insanların sevinc və qəmlərindən uzaq olduğuna görə təbiət onu cəzalandırır.

1816-cı ildə İngiltərədə fəhlə hərəkatı güclənir, demokratik partiya öz fəaliyyətini bərpa edir. Şelli bu hadisələrdə iştirak edir. Bu hərəkat öz ifadəsini “İslamın üsyanı” (1818) poemasında tapır.

Müqəddimədə Şelli fransız inqilabına qiymət verərək qeyd edir ki, məhz bu inqilab xoşbəxt gələcəyə aparan yol olmalıdır.Mürtəce romantik ədəbiyyatın “öldürücü qüssəsinə qarşı Şelli öz işıqlı azadlıq ideyalarını qoyur. O, cəmiyyətin dəyişdirilməsində inqilabi yola üstünlük verir.İnqilabçıların xeyirxah işi özlərindən sonra uzun müddət yaşayır, onların pis işləri isə öz küllərinə qarışıb”. Bu poema ingilis ədəbiyyatında  dahi inqilabi əsərdir. 1789-cu il Fransa inqilabı hadisələri və ingilis xalqının öz hüquqları uğrunda 50 illik mübarizəsi poemada öz əksini tapmışdır.

Müəllif göstərir ki,  müasir istismarçı ingilis cəmiyyətində dünyaya “ən yüksək azadlıq” gətirəcək inqilabın toxumları cücərir. Poemanın qəhrəmanları inqilabçı Laon və onun sevgilisi Sitnadır. Onlar xalqı ayağa qaldıraraq mütləqiyyət hakimiyyətini devirirlər. Laon tutduğu zorakı hökmdarı azadlığa buraxır, o isə xaricə qaçaraq intervent qoşunlarla qayıdıb həmin inqilabı qan içində boğur. Laon və Sitna həbs edilərək edam olunurlar. Lakin onların işini yeni nəsl inqilabçılar davam etdirirlər və mütləqiyyəti devirirlər.Şellinin müasirləri romantik yazıçılarından fərqli olaraq onun qəhrəmanlıqlarının qəlbi və ürəyi parçalayaraq ikili mövqe tuturlar

Əslində Şelli XIX əsr ingilis şairləri arasında üsyan rəhbərləri Laon və Sitnanın timsalında xalq içərisindən çıxmış və xalqın azadlığı, xoşbəxtliyi uğrunda çarpışan respublikaçılar surəti yaradır. Mütləqiyyətə qarşı açıq çıxışlarına görə 1817-ci ildə hakimiyyət Şelliyə qarşı irticaya başlayır. Arvadının ölümündən sonra onun iki övladı əlindən alınır, məhkəmə bu qərarını onun ateist olması ilə izah edir.

İkinci arvadı Qodvindən olan oğlunu da əlindən alınacağından ehtiyat edərək Şelli İtaliyaya köçür. Burada o, ikinci dəfə Bayronla görüşür, əməkdaşlıq edir, müştərək jurnal buraxmaq istəyirlər.

Venetsiya, Neapol, Romanı gəzən Şelli İtaliya, Yunanıstan, İspaniyada baş verən  inqilabi hadisələri diqqətlə izləyir. Bəzən onun özünə bu hadisələrdə iştirak

etmək imkanı verilir və 1822-ci ildə dənizdə boğularaq ölür. 10 gündən sonra dalğalar onun cəsədini sahilə atır. Bayron və onun dostu tərəfindən dondurularaq Romada dəfn olunur.

P.B.Şellinin lirik istedadı çox güclü idi.və italiyada o öz lirikasının ən böyük nümunələrini yaratdı. Onun ıerləri hisslərin gücü, novatorluğu, emosionallığı və cazibədarlığı ilə diqqəti cəlb edir. Lirik şerlərində şair sakit mavi dənizi, İtaliya təbiəti gözəlliyinin təsiri ilə yaşadığı təəssüratları təsvir edir. P.B.Şellidə təbiət təsvirləri fəlsəfi məna və məzmun kəsb edir . Onun ümumi "Xəyanət" adlı şerləri bu qəbildəndir. Burada təbiətin ölməzliyi, onun əbədi inkişafda olması ideyaları tərənnüm edilir. Şair sanki cəmiyyət həyatında və təbiətdəki dəyişiklikləri müqayisə edir.

P.B.Şelli yaradıcılığında məhəbbət lirikası da cçox valehedicidir. Onun yaratdığı qadın surətləri də çox gözəldirlər və sanki işıq və musiqidən toxunmuşlar. Belə şerlərə "Con gitara ilə", "Musiqi üçün arietta, şerlərini göstərmək olar. XIX əsrin 20-30-cu illərində P.B.Şelli və C.Bayron antik Elladanın incəsənət və ədəbiyyatı ilə maraqlanırdılar. Mürtəce dini ideologiya ilə mübarizədə onlar işıqlı qədim yunan incəsənətinin parlaq surətlərindən və materializmindən istifadə edirdilər. P.B.Şelli belə hesab edirdi ki, yunanlar öz əcdadlarının qəhrəmanlığını, ağlını , şücaətini isttedadını Prometey kimi miras götürmüşlər. O, yunanların türk zülmünə qarşı qalxacaqlarını səbrsizliklə gözləyirdi. Yunanların türklərə qarşı üsyana hazırlaşmaları xəbərinin təsiri altında "Azad edilmiş Prometey" lirik dramını yazdı.

Doğrudan da şerin möhtəşəmliyinə, monoloqların lirik zənginliyinə, ehtiraslara və təbiiliyinə görə bu əsər Şelli istedadının böyüklüyünü bir daha sübut edir. Öz dövrünün tələblərinə , inqilabi dünyagörüşünə uyğun şəkildə müəllif Prometey haqqındakı əfsanənin mətnində dəyişikliklər edir.

Şelli özünün "Azad edilmiş Prometey" poemasını yunanların türk işğalına qarşı apardığı mübarizəyə həsr etmişdir.Prometey haqqında qədim əfsanəni Şelli öz əsərində öz dövrü ictimai mübarizəsinin təcrübəsi ilə əlaqələndirərək öz inqilabi görüşlərinə uyğunlaşdırır.

